Müstəqil ictimai-siyasi, publisistik qəzet № 15 (1095) 13 aprel 2022-ci il Kredo. S.1. Qəzet 1999-cu ilin oktyabrından çıxır

## "XUDAFƏRİN – 90"

# YAŞAMAĞIN SÖZ YOLU

## Şakirin dövləti, varı...

**İnsanlığın maddi dünyadan cismani varlığı ilə qazandığı iki qismə bölünür.**

**Bir çoxları üçün birinci olandan danışaq; bu, maddiyyat qazancıdır. Evdir, mülkdür, sərvət toplamaqdır, bir sözlə, dünya malının maddiyyat tərəfi ilə bağlı olan nə varsa, hamısıdır.**

**İki-üç cümlə ilə dünyanın maddiyyat sarıdan varına sahib olanları qətiyyən aşağı tutmaq fikrim yoxdur. Axı çoxlu ağıllı adamlar var ki, dünyanın maddiyyat sarıdan varına da sahib olurlar. Və bundan sonra mənəvi mühitin ahənginə nizam vermək üçün güclərini əsirgəmirlər. Başqa sözlə, qazandıqları maddi sərvəti əsirgəmirlər.**

**İkinci qisim adamlar da var ki, onlar ha çalışıb - vuruşsalar da, dünya malının maddiyyat tərəfinə sahib ola bilmirlər. Bütün varlıqları ilə dünyanın mənəviyyat mülkünü əqidələrinə uyğun, yaşayış tərzlərinə uyğun özlərinə çəkə bilirlər.**

**Böyük Nizami də öz hücrəsində dünya fatehini öz ixtiyarına almışdı. Şəms Təbrizi də dünyanı ovucunun içinə yığmışdı sözü ilə. Cəlaləddin Rumi özünü dünyanın şahənşahı hesab edirdi məsnəvisi ilə. Nəimi də, Nəsimi də yaşam tərzləri ilə dünyanın mənəvi mülkünün daha uca olduğunu göstərmək istəmişdilər.**

**Dünyanın mənəvi mülk sahibləri ağılsız adamlar deyildilər.**

**Dünya bu gün qədərincə işığına görə mənəvi mülk sahiblərinə borcludur.**

* * *

Bu gün etiraf olunsa da, olunmasa da "Kredo" qəzeti bir mətbuat məktəbi kimi kifayət qədər yaş qazanıb, ömür yolu keçib, Azərbaycan mətbuatının müstəqillik dövrü üçün canlı bir tarix yazıb. Yazıçı-publisist Elçin Kamal, şair-publisist, ssenarist Vüsal Nuru, publisist-şair Günay Dağlı, yazıçı-publisist Nəriman Mahmud, idman sahəsi üzrə tanınmış jurnalist Səbuhi Səfiyarlı, şair-publisist Vəzir Kişiyev, şair-publisist Hidayət Səfərli, gənc şairlər Hikmət Məlikzadə, İltimas Səmimi, Ramin Qurban, Aliyə Əsədova... bu sırada hələ çoxları var, amma bir nəfəri ayrıca yazıya gətirmək istərdim. Bu, folklorşünas, etnoqrafiya tədqiqatçısı, şair Şakir Əlif oğlu Albalıyevdir.



Burada bir lətifə yadıma düşür. Mənim tələbəlik dostum, bir vaxt filologiya fakültəsində oxuyarkən şəkli şərəf lövhəsini bəzəyən Qədimalı Rəhimov məndən soruşdu ki, qəzetə yazdığınız məqalələrə görə qonorar alırsınız? Dedim ki, ay dostum, qonorar daha yoxdur, ən azı bizim qəzetdə yoxdur.

Qədimalı müəllim xüsusi bir təəssüflə sözünün gerisini gətirdi: "Mən elə bilirdim ki, bu məmləkətdə Şakirdən çox qazanan yoxdur".

Qədimalı müəllimin sözünü qəribçiliyə salmaq istəmirəm. Axı Şakir Albalıyev müxtəlif imzalarla - Şakir Pirəsəd, Ş.Sofulu, Ş.Əlifoğlu, Şakir Aydın, Ş.Albalıyev və bir çox belə imzalarla müxtəlif qəzetlərdə yazılarla çıxış edir.

Bu adam söz sahibi, qələm işlədən sənətkar kimi istər tədqiqatda, istərsə də bədii yaradıcılıqda yorulmadan öz sarayını qurur.

Şakir Əlifoğlu kimi müəlliflərin bu dünyadan qazancları yaratdıqları, can, qan verdikləri söz mülküdür və Şakir buraya qədərki zamanını havayı yaşamayıb. El dilində desək, papağını günə havayı yandırmayıb.

Elmi yaradıcılığı zaman-zaman zəhməti ilə zinətlənib. Və bu yerdə, zənnimcə, dəqiq tərcümeyi-hal qeydləri yerinə düşür:"Albalıyev Şakir Əlif oğlu 25 aprel 1969-cu ildə Cəbrayıl rayonunun Dağtumas kəndinə anadan olub. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Filologiya üzrə fəlsəfə doktoru, dosentdir. AMEA Folklor İnstitutunun Mifologiya şöbəsində aparıcı elmi işçidir. 2009-cu ilin yanvarından "Xudafərin" qəzetinin baş redaktorudur. Ölkə Prezidenti İlham Əliyevin 2020-ci il 22 iyul tarixli Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub.

"Azərbaycan məişət nağıllarında şah obrazı", ("Təknur", 2008), "Sədnik Paşa Pirsultanlı poeziyasına bir baxış" (Gəncə, "Pirsultan", 2011), "Sona Xəyal yaradıcılığına bir baxış" ("MBM", 2011), "Özüm, Taleyim, Tanrım..." ("Elm və təhsil", 2012), "Cəbrayıl rayonunun toponimləri (Ensiklopedik məlumat kitabı)" ("Təknur", 2014)- Ataş Verdiyev və Çapar Kazımlı ilə birgə, "Cəbrayıllı Milli Qəhrəmanlar" ("Təknur", 2019), "Azərbaycanda doğum mərasimi: funksiyası və semantikası" ("Elm və təhsil", 2020), "Xalq bayramları probleminin nəzəri əsasları və Novruz" ("Təknur", 2020) kitablarının müəllifidir.

Şakir Albalıyevin 8 kitabı işıq üzü görüb .Azdımı? Şəkkak oxucu üçün deyirəm ki, az deyil. Dünyanın maddiyyat yükündən imtina eləməyin peşmanlığını çəkməyə dəyməz. Çalışıram ki, Şakir üçün yazdığımın mahiyyəti onun haqqında bu günə qədər yazdıqlarımdan qədərincə fərqlənsin. Axı Şakir 5 il bundan əvvəlki deyil. O, professor Azad Nəbiyevin rəhbərliyi altında improvizə ilə qeyd etsək, ədalətli şah obrazını təkcə elmi işində yaratmadı, həm də mənəvi dünyasında bərqərar etdi. Şakir indi yüksək yaradıcılıq tempi ilə axtarışlarını davam etdirir. Doktorluq işini tamamlayıb və müdafiə üçün təqdim edib. Şakir ustadlarına münasibətdə həmişə səmimi olub. Bu sırada onun elmi məsləhətçisi Seyfəddin Rzasoyun adını xüsusi ilə çəkmək yerinə düşər.

Bəzən insanın zəhmətindən, istedadından da çox, onun bəxti, taleyi həyatı üçün xüsusi əhəmiyyət kəsb edir. Professor Seyfəddin Rzasoyun Şakir üçün elmi məsləhətçi olması, üstəlik ona mənəvi himayədarlığı heç bir cəhətdən ölçüyə gəlməz. Bu da taleyin bir xoş qismətidir. Seyfəddin Rzasoy kimi bir ziyalının Şakirin mənəvi təkamülündəki rolu heç vaxt danılmayacaq gücdədir.

Bütün Şakirə aid olan həyat faktlarının hamısını sadalamalı olsaq, bir kitab da bəs etməz, amma müdrik tənqidçi dostum Sabir Bəşirov demişkən, onun "Kredo" və "Xudafərin" qəzetlərindəki ədəbi-publisist fəaliyyətini qabağa çəksək, onun heç başını qaşımağa da vaxtı olmaz.

*(Davamı 3-cü səhifədə)*



*(Əvvəli 1-ci səhifədə)*

Fəxrlə deyirəm ki, Şakir Albalıyev "Kredo" qəzetində formalaşıb, jurnalist kimi formalaşıb, publisist kimi yetişib, ədəbi-ictimai mühitin içərisinə "Kredo" qapısından keçib gedib. Bunlar öz yerində. Bir Allah şahiddir ki, Şakiri Muğan çölündən mətbuat mühitinə gətirmək üçün necə çətinlikləri, necə keçilməz sədləri dəf etməli olmuşuq. Nə üçün? Ona görə ki, Şakirin təbiətində mətbuat üçün, söz üçün xüsusi bir fədakarlıq istəyi aşıq-aşkar görünürdü.

Şakiri hələ dördüncü sinifdə oxuyandan tanıyıram. Bir vaxt şöbə müdiri olduğum "Xudafərin" qəzetində onun şagird yazılarını çap üçün redaktə etmişəm. Və o zamandan üzü bəri Şakirin mətbuata əbədi bağlılığını hiss etmişəm.

Şakir mənim rəhbərliyimlə tarixi abidələrdən yazan şagirdlərin müsabiqəsində də uğurlu yer tutub, Fəxri Fərmanla təltif olunub və onun əlini akademik İqrar Əliyev sıxıb.

Bütün bunlar artıq tarixdir. Zamanımızdan çox geridə qalıb. Amma Şakir müharibənin odundan da, alovundan da keçdi. Bir vaxt şagird yazıları ilə imzasını qoyduğu "Xudafərin" qəzetinin indi baş redaktorudur.

"Xudafərin" qəzeti tarixi bir yol keçib. Əvvəl "Lenin bayrağı", sonra "Kolxozçu", daha sonra "Xudafərin" adı müstəqillik dövrümüzün ilk qaranquşu kimi araya gəldi. Bir vaxt bu qəzetin şöhrətli redaktorları olub. Xasay Əliyev, Əfsər Məmmədov, İnqilab Əliyev, Fehruz Atakişiyev, Sirac Rüstəmov, Ədil Şərifov, Hafiz Hüseynxanlı, Sərməst Seyidəliyev, Afər Əhmədov, Seyfəddin Əliyev, Sahib Abdullayev və nəhayət, Şakir Albalıyev. Təkcə elə bu adların sırası onun indi hansı məsuliyyətli bir vəzifəni daşıdığına kifayət qədər əsasdır.



Şakir eyni zamanda həm də müstəqillik dövrünün yetirməsidir. Onun xidmətləri dövlətimiz tərəfindən də təqdir olunub. Müxtəlif qurumların fəxri fərmanlarına, diplomlarına layiq görülüb. Ən əsası odur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzası ilə "Tərəqqi" medalı ilə təltif olunub.

Şakir bütün yazılarında zamanına uyğun həyat devizinə sadiq olub. Onun üçün ən böyük vardövlət onun qurduğu mənəviyyat sarayıdır. Dövlət sözü burada çoxmənalı anlam daşıyır.

Şakir dövləti ilə fəxr edən ziyalıdır. Müstəqillik yolunda uğurla gedən dövləti ilə ziyalı niyə fəxr etməsin?! Və bu yerdə bir faktı da yada salmaq yerinə düşər. İşğaldan azad olunmuş ərazilərə səfərin tərkibi həmişə diqqət mərkəzində olur.

Cəbrayıla Prezidentin iştirakı ilə yerli ziyalıların seçilməsi sırasında Şakirin adının da olması onu tanıyanlar üçün xüsusi qürur qaynağı oldu.

Şakir Albalıyevin Prezidentlə birgə fotoşəkilləri yayıldı. O, həmin tədbirdə cəbrayıllı ziyalılar üçün iftixar mənbəyi olan "Xudafərin" qəzetinin nüsxəsini Prezidentə təqdim etdi.



XUDAFƏRIN

Novruz bayramınız mübarək!

90 yaşlı qəzetimiz

Bu il "Xudafərin" qəzetinin 90 illiyidir. Böyük birliyin simvolu olan "Xudafərin" qəzeti tanınmış publisist, fədakar jurnalist Şakir Əlifoğlunun baş redaktorluğu ilə böyük yubileyini qeyd edəcək.

Bu, əlbəttə, bizi sevindirir.

İnsan daş, torpaq xırdası deyil, canlı varlıq olaraq daim hərəkətdədir və böyümədədir. Şakirin mənəvi boy artımı bizim gözlərimizin önündə keçib. Ona görə də Şakirin mənəvi boy artımını özümüz üçün sarsılmaz həqiqət kimi görürük. Həqiqətlər isə heç vaxt ölmür.

***Əli RZA*** Xələfli

***13.04.2022***